

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 243 (20.897)

26 dekabr 2013-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də ATƏT-in Bakı ofisinin rəhbəri Koray Tarqayı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Azərbaycanın sürətlə inkişaf edən ölkələrdən biri olduğunu vurğulayan Koray Tarqay ölkəmizdə diplomatların fəaliyyəti üçün yüksək şəraitin yaradıldığını bildirdi.

Görüşdə Azərbaycan Respublikası ilə ATƏT arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

* * *

Dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə dünya azərbaycanlılarına təbrik ünvanlamışdır.



# Naxçıvan Muxtar Respublikasının Konstitusiyası dövlətçilik rəmzidir

## *Konstitusiyanın qəbul edilməsinin 15 illiyinə həsr olunmuş tədbirlər keçirilir*

Naxçıvan Dövlət Universitetində “Naxçıvan Muxtar Respublikasının Konstitusiyası dövlətçilik rəmzidir” mövzusunda tədbir keçirilmişdir. Tədbiri universitetin rektoru, professor Saleh Məhərrəmov açaraq bildirmişdir ki, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu, müstəqil Azərbaycanın dövlət quruculuğunun əsasını təşkil edən ilk Konstitusiya Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qoruyan, demokratik quruluşa təminat verən ali hüquqi sənəddir. Rektor Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbul edilməsinin 15-ci ildönümü münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) bu münasibətlə ali və orta ixtisas təhsili müəssisələri arasında keçirdiyi hüquq olimpiadasında I, II və III yerlərin qaliblərinin məhz universitetin qeyri-hüquq ixtisasında təhsil alan tələbələrinin olmasını yüksək qiymətləndirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi, universitetin Hüquq fənləri kafedrasının müəllimi İlqar Mirzəyev mövzu ilə bağlı məruzə etmişdir. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının muxtar respublikanın konstitusion statusunun və Naxçıvanın muxtariyyətinin əsası kimi əhəmiyyətindən bəhs edən məruzəçi muxtar respublikanın muxtariyyət statusunun formalaşması, Konstitusiyanın yaranması tarixinə nəzər salmış, Naxçıvan Muxtar Respublikasının dördüncü Konstitusiyasının 1998-ci il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən “Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə təsdiq edildiyini xatırlatmışdır. Bildirilmişdir ki, 6 fəsildən və 50 maddədən ibarət Konstitusiya Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumağa, demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna və qanunun aliliyinə təminat verir.

Məruzədə həmçinin Konstitusiyanın Naxçıvan Muxtar Respublikasının statusunu müəyyənləşdirən, suverenliyini ifadə edən, qanunvericilik hakimiyyətini təsdiqləyən, əsas insan və vətəndaş hüquqları və azadlıqlarını əks etdirən fəsil və maddələri təhlil olunmuşdur.

**Mehriban SULTAN**

*Dünən Naxçıvan Müəllimlər İnstitutunda Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsinin 15 illiyi münasibətilə elmi-praktik konfrans keçirilib.*

Konfransı giriş sözü ilə institutun rektoru, professor Oruc Həsənli açaraq bildirib ki, Naxçıvanın muxtariyyətinin əsasları hazırda qüvvədə olan 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri ilə qoyulub. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilib. Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılıb. 1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü Konstitusiyası qəbul edilib.



Bildirilib ki, 1998-ci il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Azərbaycan Konstitusiyası əsasında hazırlanmış yeni Konstitusiyası muxtar respublikanın Ali Məclisində qəbul edilib və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olunub. Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikası Konstitusiyası ilə üzvi surətdə bağlı olan bu Konstitusiyası qəbul edilərkən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, haqq-ədalətə, qanuna əsaslanaraq Naxçıvan Muxtar Respublikasının əhalisinin layiqli həyat səviyyəsini təmin etmək, güzəranını yaxşılaşdırmaq, Naxçıvan Muxtar Respublikasında Konstitusiya çərçivəsində demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat vermək, qanunun aliliyini qorumaq kimi niyyətlər bəyan edilib.

Sonra konfransda “Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsinin ictimai-tarixi şəraiti” mövzusunda institutun Humanitar və təsviri incəsənət kafedrasının baş müəllimi Ələkbər Cabbarlının, “Qanunumuz haqq yolumuzdur” mövzusunda Riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiri, dosent Rövşən Vəliyevin məruzələri olub.

**Səbuhi HÜSEYNOV**

# Əməyin mühafizəsi diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata görə, cari il fevral ayının 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “2012-ci ilin yekunları və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti qarşısında qoyulmuş tapşırıqların icrası ilə bağlı bu ilin 11 ayı ərzində bir sıra işlər görülüb. Belə ki, əməyin mühafizəsi ilə bağlı 180 istehsal müəssisəsi və tikinti sahəsində yoxlamalar aparılıb, bu sahədə olan mövcud nöqsanların aradan qaldırılmasına dair 31 halda icrası məcburi göstərişlər, 6 halda inzibati xəta hadisəsinə yol vermiş şəxslərin inzibati məsuliyyətə cəlb olunaraq 6500 manat məbləğində cərimələnməsinə dair qərar verilib. Əməyin mühafizəsi qaydalarının pozulması ilə bağlı 84 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılıb, 143 işçi isə işin xarakterinə uyğun fərdi mühafizə vasitələri ilə təmin edilib.

Müvəqqəti qurğuların qurulması və normal əmək şəraitinin yaradılması məqsədilə tikinti aparılacaq ərazilərə baxış keçirilib və akt tərtib olunaraq həmin tikinti sahələrində işlərin başlanmasına razılıq verilib.

İstehsalatda baş vermiş 8 bədbəxt hadisədən 6 hadisənin təhqiqatı başa çatdırılıb. İki hadisənin təhqiqatı hazırda davam etdirilir.

Nazirlikdən onu da bildiriblər ki, qapalı istehsal müəssisələrində işçilərin sağlamlığına mənfi təsir göstərən və peşə xəstəliyinə zəmin yaradan mövcud amillərin müəyyənləşdirilməsi üçün ölçmələr aparılıb, aşkar olunan nöqsanların aradan qaldırılması istiqamətində lazımi tədbirlərin görülməsi məqsədilə işəgötürənlərə metodik köməkliklər göstərilib.

Nəzarət qaydasında aparılan araşdırmalar zamanı əmək qanunvericiliyinə uyğun işçilərlə əmək müqaviləsinin bağlanması, onların bədbəxt hadisələr və peşə xəstəlikləri zamanı peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunmalarının vəziyyəti diqqət mərkəzində saxlanılıb. Belə ki, 87 müəssisədə 132 işçi ilə əmək müqaviləsinin bağlanması, 28 halda əmək müqaviləsində əməkhaqqının real göstərilməsi, 628 müəssisədə isə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsinin bağlanması təmin olunub.

Aldığımız məlumatda deyilir ki, müvafiq dövr ərzində 29 müəssisədə əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına nəzarət həyata keçirilən zaman aşkar edilmiş mövcud nöqsanların aradan qaldırılmasına dair 25 halda icrası məcburi göstəriş verilib, 3 özəl müəssisədə inzibati xəta hadisəsinə yol vermiş şəxslər inzibati məsuliyyətə cəlb olunaraq onların 9000 manat məbləğində cərimələnmələrinə dair qərar qəbul edilib.

İşəgötürənlərin diqqətini bir daha əməyin mühafizəsi tədbirlərinə cəlb etmək məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində muxtar respublikamızda tikinti aparan özəl və dövlət müəssisələri tərəfindən əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına riayət olunması mövzusunda maarifləndirici seminarlar keçirilib. “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqının və Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin tabeliyində olan istehsal və tikinti sahələrində də əməyin mühafizəsi, sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması sahəsində işçilərin biliklərinin artırılması məqsədilə seminarlar təşkil olunub.

**Xəbərlər şöbəsi**

*Muxtar respublikamızda praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesi davam etdirilir. Məlum olduğu kimi, bu işə 2011-ci ilin sentyabr ayından başlanmış, təkcə bu ilin ötən dövründə 187 həkim şəffaf şəraitdə test imtahanlarını və müsahibə mərhələsini başa vurmuşdur.*

# Növbəti sertifikasiya test imtahanında yüz faizlik nəticə

Növbəti test imtahanında kardiologiya, mama-ginekologiya, məhkəmə-tibb ekspertizası, otorinolaringologiya, allerqologiya, pediatriya, stomatologiya, dermatovenerologiya, terapiya, əczaçılıq ixtisasları üzrə həkimlər öz bilik və bacarıqlarını sınamışlar. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında keçirilən test imtahanında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Sertifikasiya Şurasının sədri Nihad Seyidov test imtahanının qaydaları, Sertifikasiya İmtahan Komissiyasının sədri Süleyman Cəfərov isə praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının artırılmasında sertifikasiyanın rolu haqqında məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində test imtahanı üçün əvvəlcədən 1000 sual tərtib edilərək kompüterə yerləşdirilmişdir. Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsi nümayəndəsinin iştirakı ilə test bankından hər variant üzrə 100 sual seçilərək imtahanda iştirak edən 16 nəfərə paylanmış, 3 saat davam edən imtahan prosesinin şəffaf, tam obyektiv şəraitdə keçməsi təmin edilmişdir.

Test imtahanının yekunlarına görə, mütəxəssislərdən 7 nəfər 90-100, 7 nəfər 80-90, 1 nəfər 70-80, 2 nəfər isə 60-70 arası bal toplayaraq test imtahanından keçərli sayılmışlar. Mərkəzi Uşaq Xəstəxanasının pediatrı Aytən Əhmədova yüz faizlik nəticəyə nail olmuşdur. Bir nəfər isə zəruri həddi keçə bilməmişdir. Sertifikasiya prosesinin müsahibə mərhələsi növbəti on gün ərzində keçiriləcək və bu mərhələdə də uğur qazananlar növbəti beş il üçün sertifikat alacaqlar.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

# Xoş sabaha inam

***Bu gün müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycanda ulu öndərin ideyaları dönmədən həyata keçirilir. Azərbaycanımızın ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan da intibah dövrünü yaşayır. Yaradılmış sağlam mühit iqtisadi inkişafa, sosial yüksəlişə təkan verir, adamları doğma diyarın hər qarışını cənnətə döndərmək uğrunda inamlı mübarizəyə ruhlandırır.***

Sürətlə gözəlləşən Naxçıvanın simasını dəyişdirən təkcə abad küçələr, rahat yollar, yaraşıqlı parklar, binalar deyil. Doğma yurda sonsuz məhəbbətin ifadəsi hər addımda hiss olunur. Ürəklə, həvəslə görülən işlərin könülaçan fərəhli nəticələri isə göz qabağındadır. Bu gün Naxçıvan yenidən qurulur. Ancaq bu yenidənqurmada dünənimizə məhəbbət və ehtiram hissləri də qəlbimizi dağa döndərir. Beş min il şəhərsalma tarixi olan, Azərbaycanın ən qədim yurd yerlərindən biri, hər daşında, qayasında minilliklərin izini yaşadan, bəşər sivilizasiyasının ilkin məskənlərindən sayılan Naxçıvanın simvoluna çevrilən tarixi memarlıq nümunələri qorunub saxlanılır, yeni tikintilər isə elə inşa olunur ki, tarixlə vəhdət yaranır. Uğurla davam etdirilən iqtisadi siyasətin nəticəsidir ki, bu gün Naxçıvan ölkənin digər regionlarından öndədir. Bunu hər bir naxçıvanlı, qədim diyarımıza gələn hər bir qonaq da görür və təqdir edir. Təsadüfi deyildir ki, təkcə son on ildə muxtar respublika iqtisadiyyatı real ifadədə 12,5 dəfə artmışdır. Sənaye sahəsində 45,4 dəfə, kənd təsərrüfatında 4,5 dəfə, tikinti sektorunda 14,2 dəfə, nəqliyyat sektorunda gəlirlər üzrə 3,3 dəfə, rabitə və informasiya sektorunda 9,7 dəfə, xarici ticarət dövriyyəsində 12,2 dəfə artım olmuşdur. İqtisadiyyatın və sosial sahələrin inkişafı üçün əsas kapitala 3 milyard 704 milyon manat vəsait yönəldilmiş, onun 46,4 faizini dövlət, 53,6 faizini isə qeyri-dövlət investisiyaları təşkil etmişdir. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi 15,8 dəfə artaraq 3 milyard 588 milyon manat təşkil etmiş, xarici mənbələrdən əsas kapitala 116 milyon manat vəsait yönəldilmişdir. Dövlət tərəfindən sahibkarlıq subyektlərinə 90 milyon manata yaxın güzəştli kredit verilmişdir. Ümumi məhsul istehsalının həcmində qeyri-dövlət müəssisələrinin payı 87 faiz olmuşdur. Bu dövrdə 954 istehsal və xidmət müəssisəsi yaradılmış, sahibkarlıq subyektlərinin sayı 2 dəfə artmışdır. Sahibkarlığın inkişafına göstərilən qayğının, iqtisadiyyatın sürətli inkişafının nəticəsidir ki, 58 min 460 yeni iş yeri açılmış, muxtar respublikada işsizliyin səviyyəsi sıfra enmişdir. Əhalinin sosial müdafiəsinə və təminatına çəkilən xərclər 55,1 dəfə, əhalinin gəlirləri 9,5 dəfə, əməkhaqqı 9,5 dəfə yüksəlmişdir. Yoxsulluğun səviyyəsi 35,1 faizdən 4,5 faizə enmiş, yoxsul əhalinin sayı 6,8 dəfə azalmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Naxçıvana sonuncu səfərində də muxtar respublikada aparılan quruculuq işlərini yüksək qiymətləndirmiş və bunun səbəblərini belə açıqlamışdır: ***“Burada hər bir sahədə gözəl inkişaf vardır... Hər tərəf göz oxşayır, hər tərəfdə böyük zövqlə binalar tikilir. Bütün bu işlər onu göstərir ki, bu işləri görən insanlar doğma xalqına, doğma diyarına qəlbən bağlıdırlar. Əsas məsələ Vətən sevgisidir. İqtisadi imkanlar böyük də ola bilər, o qədər böyük olmaya da bilər. Amma əgər Vətən sevgisi varsa, məhdud iqtisadi imkanlarla da çox iş görmək olar. Mən çox şadam ki, naxçıvanlıların Vətənə bağlılığı həmişə olduğu kimi, çox yüksək səviyyədədir”.***

Yuxarıda sadaladığımız faktlar, sadəcə, statistik rəqəmlər deyil. Bu rəqəmlər ulu öndər Heydər Əliyevin quruculuq xəttinin, onun irsinin konkret bir regionda bəhrələridir. Sözsüz ki, muxtar respublikamızın ayrılmaz həyat ritminə çevrilən bu prosesin təməlində Heydər Əliyev yoluna sədaqət, digər tərəfdən isə düzgün idarəetmə prinsipləri və təşəbbüskarlıq dayanır.

İnkişaf etmiş dövlətlərin tarixi təcrübəsində sübut edilib ki, hər bir dövlətin ən qiymətli sərvəti onun vətəndaşlarıdır. Əgər dövlət öz vətəndaşının qayğısına qalır, onun problemlərinin həllini, yaxşı yaşamasını təmin etməyi, insan hüquq və azadlıqlarını qorumağı özünün prioritet vəzifəsinə çevirirsə, bu halda həmin ölkənin inkişafı labüddür. Bu gün muxtar respublika həyatının ayrılmaz tərkib hissəsinə çevrilən tikinti-quruculuq prosesləri dinamik xarakteri ilə regionun ən uçqar dağ və sərhəd kəndlərini belə əhatə edir. Elə bu faktın özü də insan amilinə qayğının ifadəsi deyilmi? Yəni tikilənlər, qurulanlar muxtar respublika sakinlərinə yaxşı iş şəraiti və normal fəaliyyət yaradılmasına, regionun sosial-iqtisadi inkişafına onların daha böyük töhfələr verməsinə, mahiyyət etibarilə diyarımızın daha da müasir görkəmə qovuşmasına hesablanmış məqsədyönlü tədbirlərin ifadəsidir.

Hər bir millətin tərəqqisi məktəb, təhsil və müəllimlə bağlıdır. Buna görə də haqlı olaraq müəllimləri cəmiyyətin elitası adlandırırlar. Bu baxımdan ümummilli lider Heydər Əliyevin ***“Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır”***, ***“Təhsil millətin gələcəyidir”*** müdrik kəlamlarına daim sadiq qalınaraq hər il ölkəmizdə, eləcə də muxtar respublikamızda neçə-neçə təhsil müəssisəsinin tikilməsinə, həmçinin zəruri ehtiyacı olan təhsil ocaqlarının əsaslı təmir edilməsinə, yenidən qurulmasına, habelə onların dünya standartlarına cavab verən müasir avadanlıqlarla təchiz olunmasına xüsusi diqqət yetirilir. İstedadlı gənclərimizin xarici ölkələrin nüfuzlu universitetlərində yüksək səviyyədə təhsil almalarına hər cür şərait yaradılması, qayğı göstərilməsi təhsillə bağlı aparılan siyasətin tərkib hissələrindən biridir. Onu qeyd edək ki, muxtar respublikamızda təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, məktəblərimizin dərs vəsaitləri, dərslik və bədii ədəbiyyat, informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunması da diqqət mərkəzində saxlanılır.

Həyata keçirilən tədbirləri göz önünə gətirəndə muxtar respublikamızda görülən işlərin həcmi, sözün həqiqi mənasında, hər birimizin qəlbini qürurla doldurur. Onda düşünürsən ki, öz torpağına, xalqına qəlbən bağlı olan insanların amalı və əməlləri ən yüksək qiymətə layiqdir. Naxçıvanın bugünkü inkişafı Azərbaycanımızın müstəqilliyinə verilən böyük töhfədir. Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ona görə inkişaf edir ki, ümummilli liderimizin yolu ilə gedir.

Mövcud uğurlar insanlarda gələcək barədə yalnız nikbin təəssürat və əminlik doğurur. Bu gün cəmiyyətimizin inkişafı ulu öndərin ideyalarına söykənir. Heydər Əliyev yolu ilə, Heydər Əliyev ideyaları ilə Azərbaycan daim böyük uğurlar əldə edərək zirvələr fəth edir. Bu gün ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident cənab İlham Əliyev tərəfindən inkişaf etdirilən müstəqil Azərbaycanı daha böyük uğurlar və perspektivlər gözləyir. Xalqın yüksək etimadı ilə müstəqil Azərbaycan Respublikasının üçüncü dəfə Prezidenti seçilmiş cənab İlham Əliyevi xalqımız intibahın, siyasi sabitliyin, əmin-amanlığın və sülhün qarantı hesab edir, ona tam güvənir. Çünki xalq həyatında baş vermiş böyük dəyişikliklərin, bizi Azərbaycanımızın parlaq sabahına aparan siyasi kursun alternativsizliyini yaxşı dərk edir və bu siyasəti birmənalı dəstəkləyir.

**Namiq MƏMMƏDOV**
*Azərbaycan Respublikasının əməkdar müəllimi*

# Səmərəli məşğulluq bütün cəmiyyətə faydalıdır

***Təkcə yaxşı yaşamağın deyil, həm də digər insanlar üçün faydalı ola bilməyin tək yolunun məhz əməkdən keçdiyini sübut etmək üçün heç də hikmət sahiblərinə istinada ehtiyac yoxdur. Bu, elə bir düşüncədir ki, məhz onun reallaşdırılması ilə torpağa atılan hər dən, üst-üstə qoyulan hər bir daş səbir, qətiyyət və iradənin məhsulu kimi son nəticədə süfrələrimizə bolluq, evimizə yaraşıq, yolumuza abadlıq gətirir. Peşə və ixtisasından asılı olmayaraq, hər kəs üçün faydalı olan əməyin təşkili, insanların bilik, bacarıq və vərdişlərindən maksimum səmərə ilə istifadə olunması inkişafın elə bir amili hesab olunur ki, onun düzgün tənzimlənməsi ilə hər kəsin arzusunda olduğu bir məşğulluq modeli yaradılır. Mövcud iş yerlərinə iqtisadi fəal əhalinin münasibətlərini tənzimləyən, hər kəsin qabiliyyətindən, sahib olduğu iş qüvvəsindən səmərəli istifadəni qarşıya məqsəd qoyan dövlətin məşğulluq siyasəti də bu vacib məsələnin həllində əsas fəaliyyət istiqaməti, iqtisadiyyatın dövlət tənzimlənməsinin mexanizmlərindən biridir.***

Dövlətin bir sıra iqtisadi tənzimləmə vasitələri vardır və tarixən cəmiyyətin inkişafı boyunca onların gücündən istifadə edilməkdədir. Məşğulluq kimi vacib bir sahədə də görülən işlər məhz davamlı inkişaf naminə əmək ehtiyatlarından səmərəli istifadə olunması üçündür. Çünki iş qüvvəsi sahibi olan insan hər şeydən dəyərlidir və bu dəyərin maddiləşərək məhsul və xidmətlər şəklində insanların xidmətinə verilməsi onun özünün və digər insanların normal yaşayışı üçün vacib şərtdir. Lakin cəmiyyətin vacib tələbi kimi bu məsələlər bütün hallarda öz-özünə yetkinləşib həllini tapa bilmədiyindən ən mühüm sosial institut olan dövlətin burada tənzimləmə rolu özünü göstərir. Problemin davamlı və aktual olması, burada əhalinin müxtəlif təbəqələrinin maraqlarının kəsişməsi və regional inkişaf məsələlərinin əhəmiyyəti nəzərə alınaraq verilən qərarların cari səviyyəli və tövsiyə xarakterli deyil, bütün prioritetlər nəzərə alınmaqla uzunmüddətli perspektivə hesablanmış dövlət proqramları şəklində təqdim edilməsi təsadüfi deyildir. Əhalinin məşğulluğunun təmin olunması siyasəti təkcə bugünkü dolanışıq xatirinə deyil, həm də altıyaşlı məktəblinin iyirmi ildən sonrakı layiqli peşə, sənət və ixtisas sahibi olaraq öz Vətəninə faydalı olmasına, onun da özünə yaxşı güzəran qurması məqsədinə xidmət edir. Bu isə uzaqgörənlik tələb edən və kifayət qədər mürəkkəb bir iş olub, bir sıra məsələlərin kompleks həllini əhatə edir. Çünki cəmiyyətimizdə məşğulluq sahəsində hələ də yaxın keçmişdəki böhran və keçid dövrünün izləri görünməkdədir. Sirr deyil ki, bir vaxtlar kimlərinsə məcburiyyət qarşısında qalaraq onilliklər boyu bağlı olduğu işini atıb digər bir xidmət sahəsinə və ya sadəcə, kommersiyaya üz tutması təkcə onun özünə deyil, həm də ailəsinə, qohum-əqrəbasına və dost-tanışlarına dərin sosial-psixoloji zərbə vuran hal olmuş və belə izlər bu gün özünü elm və təhsildə, turizm və mədəniyyətdə, səhiyyə və sağlamlıqda, idman və bədən tərbiyəsində bu və ya digər səviyyədə hələ də göstərməkdədir. Adamların düşüncəsində dərin kök salmış “alverlə qazanmaq” fikri bir çox hallarda bəzi nəcib və lazımlı peşələrin unudulmasına gətirib çıxarmışdır. Bir çoxlarının gələcək məşğulluq və yaxşı iş tapmaq arzusunun tək formuluna çevrilmiş “yalnız ali təhsil almaq” şərti də buna uyğun olaraq birtərəfli “inkişaf edib” insanların sərbəst peşə-ixtisas seçimində üstün olan tərəfə keçmişdir. Və bu gün ali təhsil ixtisaslarına seçim zamanı gənclərin əmək bazarının tələbinə uyğun olmayan kortəbii meyilləri də məhz həmin dövrün yaddaşlarda qalan fəsadlarıdır. Çünki ailələrin bir çoxu hələ də birinci sinfə gedən uşaqlarını yalnız gələcəyin cərrahı, hüquqşünası, iqtisadçısı, diplomatı və sair kimi görmək arzusu ilə yaşayaraq, onların nəbadə aqronom, baytar, qida mühəndisi, bağça tərbiyəçisi, geoloq, nəqliyyatçı, turizmçi olmağını belə düşünmək istəmir, “ən azından müəllim olar”, – deyə düşünürlər. Amma halbuki yetkin cəmiyyətdə elə sənət və peşələr vardır ki, onlar olmasa, çörəyimiz bişməz, evimiz isinməz, ocağımız yanmaz, suyumuz gəlməz, yüklər daşınmaz, qəzetlər çap oluna bilməz, televiziya verilişləri efirə hazırlanmaz, məktublarımız ünvanlara çatdırılmaz. Düzdür, indi artıq mis qazan qalayçısına tələbat olmasa da, onun yerinə optik kabel lehimləyicisi vardır. Hələ rəqəmsal texnologiyanın təmir və proqram təminatçılarını demirik – hər yerdə tələbat vardır. Xülasə, cəmiyyətin inkişafı ilə bir peşəyə tələbat azaldığı kimi, beşinə də artmaqdadır. Ancaq görünən odur ki, məşğulluq sahəsindəki münasibətlər bazarın öz insafına qaldıqda arzuedilən nəticələr yerinə elə asimmetrik vəziyyət yaranır ki, bunların yaratdığı çətinliklər sonra hamının qapısını bir-bir döyür.

Nədir bu çətinliklər? Götürək elə ticarəti. Ticarət ən qədim məşğuliyyət növlərindən biri olub, türk xalqlarının da tarixində və iqtisadi-mədəni inkişafında mühüm rol oynamışdır. Azərbaycandan keçən qədim İpək Yolu da ölkəmizin sərvətlərinin xarici bazarlara çıxarılmasında və dünyada istehsal olunan məhsulların buraya gətirilməsində mühüm rol oynamışdır. Bəlkə də, ticarət sahibkarlığına olan bu meylin nəticəsidir ki, keçmiş inzibati amirlik sisteminin, yəni sovet hökumətinin süqutu ilə bir anda əksər insanlar özlərini ticarətdə sınamağa başladılar. Və bir də baxıb gördük ki, şükür, evimizin, həyətimizin künc-bucağı lazım oldu-olmadı o dövrə görə qıt olan hər cür əşya ilə dolub daşdı. Əvəzində isə siniflər müəllimsiz, səhnələr aktyorsuz, klinikalar həkimsiz, inşaat meydanları mühəndissiz qaldı. Bir çoxları da həmin 90-cı illərin əvvəllərində əməkhaqqının çox aşağı olmasına daha tab gətirməyərək xaricdə öz bəxtini sınamağa üz tutdu. Beləcə, yetmiş il ərzində mərkəzdən həyata keçirilən standart məşğulluq siyasəti region müstəvisinə çıxdığı zaman öz çatışmazlıqlarını açıq surətdə göstərməyə başladı.

Amma halbuki məşğulluq sahəsində aparılan işlər bir sıra sahələrdə olduğu kimi, məhz ölkə və region xüsusiyyətləri nəzərə alınmaqla həll olunmalı, burada əhalinin sosial strukturu, yerli torpaq-istehsal-xammal imkanları, ərazinin geostrateji mövqeyi, hətta iqlim və hava şəraiti kimi mühüm amillər nəzərə alınmalıdır. Sadəcə, məşğulluq xatirinə yerinə yetirilən qeyri-səmərəli bir layihənin uzunmüddətli olmayacağını 10-15 il əvvəllər plansız tikilib-sökülən ticarət məntəqələri timsalında yaxşı xatırlayırıq. Əli çanta tutanın alver bəhsinə girərək əkin-biçini unutması nəticəsində pay torpaqları baxımsız qaldı ki, kartof, soğan, pomidor kimi çox işlənən nemətlərin qiyməti də bazarda, necə deyərlər, əl yandırdı. Bağ sahiblərinin alver həvəsinin nəticəsi o oldu ki, üzüm, alma da “həvəslənib” yüksəyə dırmandı. Qərəz, bu rəqəmlər hamıya tanışdır və bugünkü mövzuya birbaşa aidiyyəti olduğu üçün, sadəcə, xatırlatmaq kifayətdir.

Göründüyü kimi, səmərəli məşğulluq, əslində, yaxşı işlə təmin olunan şəxsin deyil, eyni zamanda yaşadığı cəmiyyətdə hər kəsin maraqlarına xidmət edir. Bu maraqların uzunmüddətli təmin olunması isə bu sahədə elə bir iş tələb edir ki, insanlar artıq nəinki iş üçün başqa yerlərə üz tutmasın, hətta öz yaşadığı yerdə iş yeri sahibi kimi başqalarını da işlə təmin etsin. Bundan başqa, ixtisaslaşmanın da mühüm şərt olduğu belə məşğulluq modeli çox şey vəd edir. Söz yox ki, sadə insanlar kimi, dövlət də magistrantın elmindən, müəllimin təhsilindən, həkimin bacarığından, turizmçinin peşəkarlığından, idmançının ustalığından, sürücünün sərnişinlərə mədəni xidmətindən, satıcının alıcılarla davranışından… çox şey gözləyir. Bütün bunlar ölkəmizdə həyata keçirilən regional inkişaf strategiyasının da məğzində dayanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın qarşıya qoyduğu vəzifələr bu baxımdan muxtar respublikamızda sahibkarlığın, xüsusən kiçik sahibkarlığın inkişaf etdirilməsinə, yerli ehtiyatlar hesabına yeni iş yerlərinin açılmasına, regiondakı əmək ehtiyatlarının iqtisadi fəallığının yüksəldilməsinə xidmət edir. Əhalinin müxtəlif təbəqələrinin nümayəndələrinin, xüsusən aztəminatlı və fiziki imkanları məhdud insanların müvafiq işlərlə təmin olunmasında məqsədlilik, mövsümi işlərdə – kənd təsərrüfatında, turizmdə adamların iş qüvvəsindən səmərəli istifadə olunması, xidmət sektorunda peşə-ixtisas dərəcəsinin yüksəldilməsi bu proqramın qarşıya qoyduğu məqsədlər sırasındadır. İqtisadiyyatın istehsal və xidmət sektorları arasındakı balansın tənzimlənməsi, ali, orta ixtisas və peşə təhsili səviyyələrində kadr hazırlığı məsələlərində düzgün proqnozlaşdırılmış nəticələrə əsaslanmaqla qərarlar verilməsi, məşğulluq mərkəzlərinin, əmək yarmarkalarının fəaliyyətinin yaxşılaşdırılması dövlətin gözlədiyi əsas nəticələrdəndir. Belə ki, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən təkcə 2013-cü il ərzində 2632 nəfər işə düzəlmiş, 328 nəfər peşə hazırlığına cəlb olunmuş, 1031 nəfər əmək yarmarkalarında işlə təmin olunmuşdur. Dövlət proqramının uğurlu icrası ilə gələcəkdə bu sahədə kompleks nəticələr əldə olunacağı və bununla da, regionumuzda bütün iqtisadi fəal əhalinin – işləyən və işaxtaran insanların sosial müdafiəsini gücləndirməklə daha çox yeni iş yeri açmaq, əhali gəlirlərini artırmaq və əmək bazarını daha da təkmil hala gətirmək mümkün olacaqdır.

**Əli CABBAROV**

# Naxçıvanın enerji təhlükəsizliyi tam təmin olunub

***N**axçıvan Muxtar Respublikası elektrik enerjisi ilə əvvəllər Zaqafqaziyanın vahid energetika sistemi və sistemə qoşulan Araz Su Elektrik Stansiyası vasitəsilə təchiz edilirdi. Mənfur ermənilərin düşmənçilik siyasəti nəticəsində 1990-cı ildən etibarən muxtar respublikaya elektrik verilişi dayandırılmış, yalnız Araz Su Elektrik Stansiyasında istehsal edilən 15-20 meqavat gücündə elektrik enerjisi şəbəkələrə ötürülmüşdür. Həmin dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən ümummilli liderimiz Heydər Əliyevin yorulmaz fəaliyyəti və şəxsi nüfuzu sayəsində qonşu dövlətlərdən elektrik enerjisi alınmasını təmin etmək üçün təcili tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə 1991-ci ilin dekabr ayında Türkiyə Respublikasının "Aralıq" yarımstansiyasından Naxçıvan Muxtar Respublikasının "Sədərək" yarımstansiyasına 31,5 kilovoltluq elektrik verilişi xətti çəkilmiş və Sədərək rayonuna 3-4 meqavat gücündə elektrik enerjisi ötürülməsinə başlanılmışdır.*



*Bilәv Su Elektrik Stansiyası*

İran İslam Respublikasından elektrik enerjisi alınması üçün Araz Su Elektrik Stansiyasının ərazisində 132/110/10 kilovoltluq 40 meqavoltamper güclü "Araz" yarımstansiyası tikilib quraşdırılmış, 132 kilovoltluq Araz-Araz elektrik verilişi xətti çəkilmiş və 1992-ci il dekabr ayının 3-də istismara verilmişdir ki, bu da qonşu dövlətdən 30 meqavat gücündə elektrik enerjisi almağa imkan vermişdir. 1992-ci il dekabr ayının 20-də İran İslam Respublikasının "Culfa" yarımstansiyası ilə Naxçıvan Muxtar Respublikasının "Culfa" yarımstansiyasını əlaqələndirən 10 kilovoltluq elektrik verilişi xətti istismara verilmiş, bu xətlərlə Culfa rayonunun işlədicilərinə 6-7 meqavat gücündə elektrik enerjisi ötürülməsinə başlanılmışdır. Həmçinin 1992-ci ilin dekabr ayında Türkiyə Respublikasından gətirilərək 220 kilovoltluq "Babək" yarımstansiyası ərazisində quraşdırılmış 4 ədəd – hər birinin gücü 15 meqavat olan və dizel yanacağı ilə işləyən turbin qurğuları istifadəyə verilmişdir. 1993-cü ilin may ayında isə Türkiyə Respublikasının "İqdır" transformator yarımstansiyasından Naxçıvan Muxtar Respublikasına çəkilmiş 87,5 kilometr uzunluqlu 154 kilovoltluq ikidövrəli elektrik verilişi xəttinin çəkilişi başa çatdırılmış və Naxçıvana Türkiyə Respublikasından 50-60 meqavat gücündə elektrik enerjisi ötürülməsinə başlanılmışdır. Beləliklə, 1993-cü ilin ortalarında Naxçıvana İran İslam Respublikasından 42 meqavat, Türkiyə Respublikasından 63 meqavat gücündə elektrik enerjisi daxil olmuşdur. Muxtar respublikanın elektrik şəbəkələrinin 120 meqavata qədər güclü elektrik enerjisini paylaşdırmaq üçün texniki imkanları var idi.

Ölkə Prezidentinin "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2005-ci il 2 may tarixli Sərəncamına uyğun olaraq, muxtar respublikamızda kompleks tədbirlər həyata keçirilmiş, 2006-cı ilin dekabrında ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 meqavat olan su elektrik stansiyası və 2010-cu ilin oktyabr ayında Ordubad rayonu ərazisində Gilançay üzərində gücü 22 meqavat, illik elektrik enerjisi istehsalı 80 milyon kilovat-saat olan Biləv Su Elektrik Stansiyası istifadəyə verilmişdir. Ümumi gücü 50 meqavat olan Qaz-Turbin Elektrik Stansiyasının təbii qazla iş rejiminə keçirilməsindən sonra istismara verilməsi də bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Bu da nəinki Naxçıvanın elektrik enerjisi ilə təchizatının idxaldan asılılığını aradan qaldırmış, hətta muxtar respublikanın elektrik enerjisi ixrac etməsinə geniş imkanlar açmışdır.

Regionumuzda təbii resurslar sayəsində yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsinə əlverişli şərait olduğunu bildirən Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov bizimlə söhbətində qeyd etdi ki, yola salmaqda olduğumuz 2013-cü il də ölkəmizin, eləcə də Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında uğurlu illərdən biri kimi tarixə çevrilməkdədir. Muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, əhali və təsərrüfat subyektlərinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması istiqamətində də bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Şərur rayonu ərazisində Arpaçay üzərində gücü 20,5 meqavat, illik elektrik enerjisi istehsalı 60 milyon kilovat-saat olan Arpaçay Su Elektrik Stansiyası istifadəyə verilmişdir. Stansiyada 110 metr uzunluğunda 3,9 metr diametrli tunel qazılıb betonlanmış, suqəbuledici qurğuda qapılar qoyulmuş, stansiya üçün bina tikilmişdir. Avstriyanın "Andritz" firmasından iki ədəd 7,75 meqavat və 1 ədəd 5 meqavat güclü turbinlər, Fransanın "Leroy-Somer" firmasından isə generatorlar alınıb stansiyada quraşdırılmışdır. Stansiyada istehsal olunan elektrik enerjisini şəbəkələrə ötürmək üçün 30 meqavoltamper güclü transformator yarımstansiyası tikilib quraşdırılmış, 10 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xətti çəkilmişdir.



*Arpaçay Su Elektrik Stansiyası*

Ordubad rayonu ərazisində Araz çayı üzərində gücü 36 meqavat, illik elektrik enerji istehsalı 190 milyon kilovat-saat olacaq derivasiyatipli Ordubad Su Elektrik Stansiyasında isə tikinti işləri davam etdirilir. Stansiyanın tənzimləyici bəndi Dəstə kəndində, stansiya binası isə Ordubad şəhəri yaxınlığında yerləşəcək. Uzunluğu 12,5 kilometr olan suötürmə kanalına Araz çayından saniyədə 126 kubmetr su ötürüləcək. Stansiyada hər birinin gücü 12 meqavat olan 3 hidroaqreqat quraşdırılması, elektrik enerjisinin şəbəkələrə ötürülməsi üçün 80 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xəttinin çəkilməsi və müvafiq güclü transformator yarımstansiyasının qoyulması nəzərdə tutulur.

2012-ci ildə Arpaçayın aşağı golü üzərində tikintisinə başlanılmış 1,4 meqavat güclü su elektrik stansiyasında tikinti işləri əsasən başa çatdırılmış, avadanlıqların quraşdırılmasına başlanılmışdır. Onu da qeyd edək ki, burada Avstriya və Fransada istehsal olunmuş hər birinin gücü 0,7 meqavat olan 2 ədəd turbin və generator, 2500 kva güclü 35/04 kilovoltluq transformator qoyulacaq. Ordubad rayonu ərazisində Gilançayın Tivi qolu üzərində 14 meqavat güclü derivasiya-tipli su elektrik stansiyasının tikilməsinin texniki iqtisadi əsaslandırılması sənədləri də hazırlanmışdır. Hazırda layihə işləri yekunlaşmaq üzrədir.

Muxtar respublikanın təbii şəraiti külək və Günəş elektrik stansiyalarının da tikilib-quraşdırılmasına imkan verir. Babək rayonu ərazisindəki Xalxal meşəsi yaxınlığında Günəş elektrik stansiyasının, Culfa rayonu ərazisində, Araz çayının kənarında külək elektrik stansiyasının tikilməsi məqsədəuyğundur. Azərbaycan Respublikasında bu layihələrin icrası Bərpa Olunan və Alternativ Enerji Mənbələri Dövlət Şirkəti tərəfindən həyata keçirilir. Artıq şirkət tərəfindən Naxçıvana da müvafiq ölçü avadanlıqları göndərilmişdir.

Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikanın elektrik enerjisinə olan tələbatının su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi hesabına ödənilməsi mümkün olacaq və yaxın gələcəkdə muxtar respublikamız daha çox elektrik enerjisi ixrac edəcəkdir. Belə ki, 1970-ci ildən istismar olunan 22 meqavat güclü Araz Su Elektrik Stansiyası nəzərə alınmaqla ümumi istehsal gücü 206 meqavat olan elektrik stansiyalarında hazırda tələbata uyğun olaraq, 80-90 meqavat gücündə elektrik enerjisi istehsal olunur. Araz Su Elektrik Stansiyasında generatorlar 5-6 meqavat, Naxçıvan Modul Elektrik Stansiyasında 55-60 meqavat, Biləv Su Elektrik Stansiyasında 1-2 meqavat, Arpaçay Su Elektrik Stansiyasında 4-5 meqavat, Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyasında 0,5-1 meqavat güclə işləyir.

Yay aylarında nasos stansiyalarının işləməsi ilə əlaqədar olaraq, muxtar respublikamızın elektrik enerjisinə tələbatı 75-80 meqavat, qalan aylarda isə 45-50 meqavat olur. Yay aylarında su elektrik stansiyalarında 60-68 meqavata qədər, o cümlədən Araz Su Elektrik Stansiyasında 22, Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyasında 4,5, Arpaçay Su Elektrik Stansiyasında 20, Biləv Su Elektrik Stansiyasında 22 meqavata qədər gücdə elektrik enerjisi istehsal edilir.

Göründüyü kimi, muxtar respublikanın elektrik enerjisi ilə təminatına möhkəm zəmin yaradılmışdır.

İstehsal olunan elektrik enerjisi nəinki daxili tələbatı ödəyir, hətta 25-30 meqavat elektrik enerjisi ixrac etməyə imkan verir. Bu sahədə müvafiq işlər görülmüş, son illər İran İslam Respublikasının "Pars Sakhtar" şirkəti ilə bağlanmış müqaviləyə əsasən, Naxçıvan Modul Elektrik Stansiyası ilə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası arasında dəyəri 1 milyon 680 min avro təşkil edən 24 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xətti çəkilmişdir. Xəttin istismara verilməsi muxtar respublikanın elektrik şəbəkələrinin dayanıqlılığının xeyli yüksəlməsinə, həmçinin qonşu dövlətlərlə enerji mübadiləsinin yaxşılaşdırılmasına texniki imkanlar yaratmışdır. Hazırda İran İslam Respublikası ilə enerji mübadiləsi aparılır, Türkiyə Respublikasına 20-30 meqavat elektrik enerjisi ixrac edilir.

Tabeliyində 6 elektrik stansiyası və 9 elektrik şəbəkəsi olan Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində 950 nəfərdən çox işçi çalışır. Energetiklər mövcud imkanlardan maksimum səmərəli istifadə etməyə səy göstərirlər. Artıq yüklənmiş transformatorların ayrı-ayrı yarımstansiyalara bölünməsi, yüklərin paylaşdırılmasında səmərəliliyin artırılması məqsədilə həyata keçirilən kompleks tədbirlər cari ildə də uğurla davam etdirilmiş, 110/35/10 kilovoltluq "Ordubad" yarımstansiyası yeni avadanlıqlarla təchiz edilməklə daha münasib yerə köçürülmüş, ümumi gücü 41 mva olan güc transformatorları, 110 kilovoltluq kommutasiya aparatları – açarlar, ayırıcılar, gərginlik və cərəyan ölçü transformatorları, 35 və 10 kilovoltluq müasirtipli hücrələr və digər zəruri elektrik avadanlıqları quraşdırılaraq istismara verilmişdir. Eyni zamanda 36 ədəd yeni transformator yarımstansiyası qoyulmuş, 78 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq elektrik verilişi xətləri çəkilmişdir.

İstehsal olunan elektrik enerjisindən səmərəli istifadə olunması və sərf olunan elektrik enerjisinin dəyərinin ödənilməsində mühüm rol oynayan sayğacların quraşdırılması işi də diqqət mərkəzində saxlanılır. Muxtar respublikada vətəndaşların ev və mənzillərinə rəqəmsal elektron sayğaclar qoyulmuş, enerji haqqının sayğacların göstəriciləri əsasında ödənilməsi təmin edilmişdir. Muxtar respublikada nəzarət-məlumat işinin səmərəli təşkili və əhali arasında aparılan maarifləndirici söhbətlər öz bəhrəsini vermiş, cari ilin ilk 11 ayında texniki itki nəzərə alınmaqla, 362 milyon 921 min kilovat-saat elektrik enerjisi sərf olunmuş, sərf edilən elektrik enerjisinin dəyəri tamamilə ödənilmişdir.

**2013-2014-cü ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar kompleks tədbirlər həyata keçirildiyini bildirən Yasin Səfərov onu da vurğuladı ki, enerji təsərrüfatında istismarda olan mövcud avadanlıqlara, xətt təsərrüfatlarına müntəzəm olaraq texniki baxış keçirilmiş, aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. İstehlakçılara fasiləsiz elektrik enerjisinin verilməsi diqqətdə saxlanılmışdır. Qəzalara səbəb olan istismar müddəti başa çatmış elektrik dirəkləri yeniləri ilə əvəz edilmiş, naqillər çəkilib bərkidilmişdir. Qış mövsümündə baş verə biləcək qəzaların vaxtında aradan qaldırılması üçün maşın-mexanizmlər saz vəziyyətə gətirilmiş, kifayət qədər material ehtiyatı yaradılmışdır. Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, xətt təsərrüfatında baş verə biləcək hər hansı bir nasazlıq vaxtında aradan qaldırılacaq, əhali fasiləsiz və təhlükəsiz elektrik enerjisi ilə təmin ediləcəkdir.**

## Tələbat artıq tamamilə yerli istehsal hesabına ödənilir

***"Gəmiqaya Holdinq" Şirkətlər İttifaqı tərəfindən yaradılan, heyvandarlıq və quşçuluğun inkişafında mühüm rol oynayan qarışıq qüvvəli yem istehsalı müəssisəsinin fəaliyyətə başlaması muxtar respublikada kənd təsərrüfatının digər sahələri kimi, heyvandarlıq və quşçuluq təsərrüfatlarının da inkişafında mühüm əhəmiyyət daşıyır.***

Qarışıq qüvvəli yem istehsalı sahəsində Almaniya və Türkiyədən alınmış istehsal gücü saatda 3 ton olan müasir texnoloji avadanlıqlar və hər birinin tutumu 10 ton olan 4 ədəd bunker quraşdırılmışdır. Burada müxtəlif çeşiddə ətlik-südlük mal-qara və ətlik-yumurtalıq quş yemləri istehsalına başlanılmışdır. Lakin müəssisədə istehsal edilən qarışıq qüvvəli yem muxtar respublikamızda bu məhsula olan illik tələbatın 40 faizini ödəyirdi. Həmin məhsula olan tələbatın 100 faiz yerli istehsal hesabına ödənilməsi və yeni bir müəssisənin yaradılması üçün dövlət maliyyə dəstəyi göstərilmişdir. Qısa zaman ərzində yeni müəssisə inşa olunmuşdur. İstehsal gücü saatda 10 ton olan müəssisədə Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar və hər birinin tutumu 20 ton xammal olan 9 bunker quraşdırılmışdır. Beləliklə, heyvandarlıq və quşçuluq təsərrüfatlarının səmərəli fəaliyyətinə şərait yaradılmış, bu sahədə məhsul istehsalı artımına nail olunmuşdur. Muxtar respublikada fəaliyyət göstərən heyvandarlıq və quşçuluq təsərrüfatlarının yeni müəssisədə təmin olunması əlavə xərclərin qarşısını almışdır.

Onu da qeyd edək ki, muxtar respublikada ətlik-südlük heyvandarlıq və ətlik-yumurtalıq quşçuluq təsərrüfatlarının illik qüvvəli yemə olan tələbatı 70 min tona yaxındır. Bunun 50 min tonu ətlik-südlük heyvandarlıq, 20 min tonu isə ətlik-yumurtalıq quşçuluq təsərrüfatlarının payına düşür. Bu müəssisənin istifadəyə verilməsi ilə qüvvəli yemə olan tələbat 100 faiz ödənilmiş, idxaldan asılılıq tamamilə aradan qaldırılmışdır. Hazırda müəssisənin xammala olan tələbatının bir qismi yerli istehsal hesabına ödənilir. Gələcəkdə xammala olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin olunacaqdır.

İstehsal prosesi konveyer üsulu ilə təşkil edilən müəssisədə keyfiyyətli məhsul istehsalı həyata keçirilir. Anbardan gətirilən xammal bunkerlərə vurulduqdan sonra üyüdülür. Üyüdülmüş məhsul elevator vasitəsilə qarışdırma bunkerində qarışdırılır və avtomatik olaraq paketləmə sahəsinə göndərilir. Qarışıq yem istehsalı sahəsində xammal kimi taxıl emalı müəssisəsində istehsal zamanı əldə olunan yarımfabrikantlardan da istifadə olunur. Ayrı-ayrı mərhələlərdən keçməklə hazırlanan 4 çeşiddə məhsul 50 kiloqramlıq kisələrdə "Bərəkət" əmtəə nişanı ilə satışa çıxarılır.

Yeni istehsal sahəsinin yaradılması keyfiyyətli məhsul istehsalı ilə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasına da əlverişli şərait yaratmışdır. Belə ki, müəssisədə 25 nəfər daimi işlə təmin olunmuşdur.

*Səhifəni hazırladı:* Kərəm HƏSƏNOV

*Bir çox milli-mənəvi dəyərlərimizə, musiqilərimizə və yeməklərimizə həyasızcasına sahib çıxmağa çalışan ermənilər indi də tarixi şəxsiyyətlərimizin mənimsənilməsi uğrunda addımlar atırlar.*

# Daha bir saxta təbliğat



Saxtakarlıq – bu sözün sinonimini tapmaq lazım gəlsəydi "erməni şovinizmi" ifadəsini işlətmək yerinə düşərdi. Gələcəkdə erməni etnik ünsürünü araşdıran etnoqrafların onlar haqqında qeyd etməli olduqları əsas xarakterik cəhət bu olacaq. Zaman-zaman tarixi Azərbaycan torpaqlarında müxtəlif "böyük qardaşların" dəstəyi və yardımı ilə məskunlaşan, sonradan isə bu torpaqlara sahib çıxan, XX əsrin son onilliyinin başlanğıcında tarixi və hüquqi Azərbaycan torpaqlarının daha bir hissəsini bütün dünyanın gözü qarşısında işğal edən ermənilər bu dəfə Hüseyn xan Naxçıvanskiyə sahiblənmək uğrunda təbliğata başlayıblar. Rus tədqiqatçılarının (xüsusilə R.İvanovun) son illərdə bu qəhrəman Azərbaycan övladı haqqında yazdıqlarını gördükdən sonra onlar belə qərara gəliblər ki, bu dəfə də Hüseyn xan Naxçıvanskini özününküləşdirsinlər. Bunu isə çox incə bir hiyləgərliklə həyata keçirməyə başlayıblar.

Belə ki, bir neçə gün öncə Bakı şəhərində yaşayan həmkarlarımızdan birinin Hüseyn xan Naxçıvanskinin 1905-ci ildə rus-yapon müharibəsində çəkilmiş rəsmlərindən birini sosial şəbəkələrdə paylaşması diqqətimi çəkdi və bu şəkli hansı mənbədən əldə etməsi barədə ondan soruşdum. Həmkarımız isə cavabında bunu dünyaca məşhur olan elektron ticarət saytında tapdığını bildirdi və bu rəsmi tapmaq üçün lazımi keçid linkini mənə təqdim etdi. Bu elektron ticarət saytına daxil olduğum zaman isə gözlərimə inanmadım. Üzərində Hüseyn xan Naxçıvanskinin döyüş səhnəsinin həkk olunduğu və Rusiya Ümumdünya Poçt İttifaqına aid olduğu üstündə açıq-aşkar qeyd edilən poçt markası qədim erməni poçt markası adı altında 9-17 Amerika Birləşmiş Ştatları dollarına satışa çıxarılıb. ABŞ-ın Nyu-York ştatı üzərindən satışa çıxarılan poçt markasının üzərində ermənilərə aid olduğunu göstərən hər hansı qeyd olmasa da, internet səhifəsi başlığında bu, erməni poçt markası kimi təqdim edilib. Başqa sözlə desək, onlar hələ ki özünü elə də ciddi büruzə verməyən, amma gələcəkdə ciddi bir təhlükəyə çevriləcək bir addımı atmaq üçün, necə deyərlər, "barmaq yeri" qoyublar.

Qeyd edək ki, 1905-ci il rus-yapon müharibəsinə aid şəklin altında belə yazılıb: "Xan Naxçıvanskinin rəhbərliyi altında hücum (14 yanvar 1905-ci il)". Axtarışlarımız zamanı məlum oldu ki, bu rəsm əsəri haqqında tədqiqatçılardan R.İvanov, F.Nağdəliyev, E.İsmayılov, M.Quliyev müxtəlif vaxtlarda çap etdirdikləri elmi əsərlər və məqalələrdə məlumat veriblər. Qeyd edək ki, şəklin, həqiqətən də, Hüseyn xan Naxçıvanskiyə aid olub-olmamasını dəqiqləşdirmək üçün Naxçıvan xanlığının tarixi ilə bağlı ciddi araşdırmalar müəllifi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevlə görüşdük. Tədqiqatçı şəklin Hüseyn xan Naxçıvanskiyə məxsus olduğunu təsdiqlədi. Xan Naxçıvanskinin geyimindəki Dağıstan elementlərinin çoxluğunu isə onun rus-yapon müharibəsində məhz 2-ci Dağıstan polkunun komandiri olması ilə əlaqələndirdi.

Əvvəlki məqalələrimizdən birində də ifadə etdiyimiz kimi, qafqazlı olan və Qafqaz insanının xarakterinə bələd olan süvari alayının komandir köməkçisi, polkovnik Hüseyn xan Naxçıvanskiyə dağlılardan ibarət qeyri-nizami İkinci Dağıstan Süvari Alayının formalaşdırılmasının tapşırılması təsadüfi sayıla bilməz. İkinci Dağıstan Süvari Alayının da tərkibinə daxil olduğu Qafqaz Süvari Briqadasına digər bir qafqazlı – gürcü əsilli general-mayor, knyaz Orbeliani rəhbərlik edirdi. Məhz Hüseyn xan Naxçıvanski 1904-cü il mart ayının 16-da Dağıstan Süvari Alayının formalaşdırıldığı məntəqəyə – Petrovska gəldikdən sonra avarlardan, darginlərdən, laklardan və Andiy camaatından ibarət olan süvari alayının təşkilinə nail olmuşdu. Könüllülərin sayının 200 nəfərdən artıq olması nəzərdə tutulmuş alaya daxil olmaq üçün müraciət edənlərin sayının bundan ikiqat artıq olmasında da polkovnik Xan Naxçıvanskinin şəxsi nüfuzu xüsusi əhəmiyyət kəsb edirdi.

Araşdırmalar göstərir ki, bu rəsm əsərinin müəllifi döyüş rəsmlərini çəkən, batalist-rəssam V.V.Mazurovskidir (1859-1917). Əsər isə belə adlanır: "General Mişenkonun manevri. 2-ci Dağıstan polkunun Xan Naxçıvanskinin komandanlığı altında Lindanqou kəndi yaxınlığında yapon piyada və artilleriyasına hücumu".

Qeyd edək ki, general Pavel İvanoviç Mişenko (1853-1918) 1904-1905-ci illər rus-yapon müharibəsinin qəhrəmanlarından biridir. Həmin vaxt o, Zabaykale kazak qoşunlarının komandiri olmuşdur. Rusiyada baş verən 1917-ci il inqilabından sonra o bir müddət Temir-Xan-Şurada (Sovet hakimiyyəti illərində Buynaksk şəhəri adlandırılmışdır) yaşamış və bolşeviklərin təzyiqlərinə dözməyərək özünü güllələmişdir.

İnformasiyanın sürətlə yayıldığı müasir şəraitdə ermənilərin gələcək iddialarına hesablanmış bu cür addımlarına qarşı ayıq-sayıq olmaq hər birimizin borcudur. Çünki ermənilərin 10-15 il qabaq hər hansı bir daş üzərində öz əlləri ilə cızdıqları xətləri sonradan necə dünyaya ermənilərin qədimliyi haqqında fakt kimi təqdim etdikləri hamımıza yaxşı məlumdur. Saxtakar və şovinist millətçilərinin əlində nəinki Qafqazın aborigen xalqlarının milli-mənəvi dəyərləri və fotoşəkilləri, gürcü tədqiqatçısı İ.Çavçavadzenin sözləri ilə desək, "daşlar da fəryad edir". Nə daşların, nə də insanlarımızın fəryad etməməsi üçün isə təkcə tariximizi öyrənmək yetmir, onu həm də təbliğ etməyimiz lazımdır.

**Elnur KƏLBİZADƏ**

## Fauna biomüxtəlifliyinin öyrənilməsi ilə bağlı seminar

AMEA Naxçıvan Bölməsində keçirilən elmi seminarda çıxış edən bölmənin Bioresurslar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tariyel Talıbov Naxçıvan Muxtar Respublikasının fauna biomüxtəlifliyinin nadir növlərinin fototələlər vasitəsilə müşahidəsinin monitorinqi haqqında məlumat verib. Qeyd edilib ki, institut əməkdaşlarının apardıqları müşahidələr nəticəsində muxtar respublikanın müxtəlif ərazilərində bəbir, vaşaq, çöl pişiyi, bezoar, oxlu kirpi, muflon, çay samuru, dələ, porsuq, qulaqlı kirpi, xəzər uları, kəklik, qaban, canavar, çaqqal və tülkülərin yaşadığı qeydə alınıb, qurulmuş fototələlər vasitəsilə heyvanların və quşların şəkilləri və videogörüntüləri əldə olunub. Həmin görüntülər elektron lövhə vasitəsilə seminar iştirakçılarına nümayiş etdirilib. Vurğulanıb ki, muxtar respublikada ərazilərin təbii landşaftının qorunub saxlanılması, eyni zamanda əlverişli iqlim şəraiti burada müxtəlif nadir heyvan növlərinin yaşamasına imkan verir. Bu istiqamətdə aparılan işlər davam etdirilir.

Sonra seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Elmi seminara yekun vuran AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev muxtar respublikamızın zəngin fauna və florasının daha dərindən öyrənilməsi məqsədilə tədqiqatların genişləndirilməsinin vacibliyini vurğulayıb.

**Xəbərlər şöbəsi**

## Mədəniyyət müəssisələri Yeni il bayramına hazırlaşır

Bir neçə gündən sonra 2014-cü ili qarşılayacağıq. Bu münasibətlə şəhərimizdəki mədəniyyət müəssisələri bir sıra tədbirlər keçirəcək.

M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında 1-5 yanvar tarixlərində "Xoş gəlmisən, yeni il" bədii-əyləncəli proqram təşkil olunacaq. Tədbir saat $11^{00}$ və $14^{00}$-də başlanacaq. Şaxta baba və Qar qız balacaların görüşünə gələcək, proqramda uşaqlar nağıl qəhrəmanları ilə görüşəcək, şən musiqi nömrələri isə tədbirə sevinc qatacaq.

Naxçıvan Dövlət Uşaq Teatrının hazırladığı "Şaxta babanın yuxusu" adlı səhnələşdirilmiş əyləncəli proqram dekabrın 29-da başlanacaq. Teatr 1-5 yanvar tarixlərində də saat $11^{00}$ və $14^{00}$-də "Şaxta babanın yuxusu" adlı səhnələşdirilmiş əyləncəli proqramla uşaqların görüşünə gələcək.

Naxçıvan Dövlət Filarmoniyasında isə 1-5 yanvar tarixlərində hər gün saat $11^{00}$-də "Yeni il şənlikləri" adlı musiqili-əyləncəli proqram təqdim ediləcək.

Yeni il şənliklərində uşaqlar üçün əyləncəli oyunlar, mahnı və rəqslər də hazırlanmışdır. Sizi mədəniyyət müəssisələrində təşkil olunacaq yeni il şənliklərinə dəvət edirik.

## Qış tətili günlərində uşaqlar üçün Dövlət Film Fondunda kinofilmlər göstəriləcək

Naxçıvan Dövlət Film Fondunda məktəblilərin qış tətili günlərində 1 yanvar 2014-cü il tarixdən Azərbaycanfilm kinostudiyasında və xarici ölkələrin kinostudiyalarında istehsal olunmuş bədii, cizgi və qısametrajlı filmlər nümayiş etdiriləcək. Seanslar saat $11^{00}$-də başlanacaq. Məktəblilər Azərbaycan filmlərindən "Cin mikrorayonda", "Gəmi saatının sirri", "Qaladan tapılan mücrü", "Biz qayıdacağıq", "Ağ atlı oğlan", "Sehrli xalat", "Dolu" və başqa filmlərə baxa bilərlər.

Məktəblilər üçün xarici ölkələrdə istehsal olunmuş "Dost", "Saat hələ vurur" və başqa kinofilmlər nümayiş etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

*Dünən İlham Əliyev adına Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə Futbol Veteranları İttifaqının birgə təşkil etdiyi veteran futbolçular arasında turnirin yekun mərhələsinin oyunları keçirilib. Açılış mərasimindən sonra tədbirin bədii hissəsi Naxçıvan Dövlət Filarmoniyası kollektivinin çıxışı ilə yadda qalıb.*

## Veteran futbolçular bu dəfə Naxçıvanda bir araya gəldilər



Bundan sonra turnirin yekun mərhələsinə start verilib. Tədbirdə veteran futbolçulardan ibarət "Neftçi", "Qarabağ", "Kəpəz", "Sumqayıt" və "Araz-Naxçıvan" komandaları iştirak ediblər. Meydan sahibləri kimi Naxçıvan təmsilçisi yalnız son oyunda meydana çıxacaqdı və komandanın rəqibi digər 4 komandanın birləşmiş kollektivi olacaqdı.

Əvvəlcə meydana "Neftçi" və "Kəpəz"in veteranları çıxdılar. Bu görüşdə daha yaxşı təsir bağışlayan paytaxt klubu 5:2 hesablı qələbə qazanmaqla adını finala yazdıran ilk komanda oldu. Daha sonra meydan "Sumqayıt" və "Qarabağ" veteranlarının ixtiyarına verildi. Futbolçu karyeralarını yenicə başa vurmuş sumqayıtlılar qarabağlı həmkarlarının qapısından 7 top keçirdilər. Əvəzində isə öz qapılarından 4 top çıxarmaq məcburiyyətində qaldılar. "Sumqayıt" bu qələbədən sonra finalda "Neftçi"yə rəqib olub.

Üçüncülük matçında "Kəpəz" "Qarabağ"la qarşılaşıb. Daha aktiv oyun sərgiləyən gəncəlilər 5:4 hesabı ilə qalib gələrək turnirin bürünc mükafatçısı olublar. Final oyunu isə gözlənildiyindən də gərgin keçdi. "Neftçi" və "Sumqayıt"ın veteran futbolçularının oyunu göz oxşadığı qədər də, çətin alındı. 5:2 hesabı ilə paytaxt klubunu məğlub etməyi bacaran Sumqayıtın eyniadlı komandası turnirin baş mükafatını qazanıb.

Bundan sonra meydana "Araz-Naxçıvan"ın veteran futbolçuları çıxıblar. Muxtar respublika təmsilçisinin yoldaşlıq oyununda rəqibi digər komandaların veteranlardan ibarət kollektivi olub. Hesabda önə keçməsinə baxmayaraq, "Araz-Naxçıvan" meydanı 5:7 hesablı məğlubiyyətlə tərk edib. Sonda turnirin mükafatçıları təşkilatçılar tərəfindən diplom, medal və kubokla təltif ediliblər.

Futbol Veteranları İttifaqının sədri Oqtay Abdullayev tədbirdən sonra bizimlə söhbətində belə turnirlərin muxtar respublikada ənənə halı almasının vacibliyini qeyd etdi: "Turnirin yekun mərhələsinin Naxçıvanda təşkilinə yaradılan şəraitə görə minnətdarlığımı bildirirəm. Bu gün Naxçıvan belə bir turnirə layiqli ev sahibliyi etdi. Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş bu yarışın yekun mərhələsinə əvvəlki mərhələlərdə fərqlənən komandalar dəvət olunmuşdular. Düşünürəm ki, belə turnirlər təşkil etməklə həm də veteran futbolçularımızı bir araya toplamış oluruq. Gələcəkdə Naxçıvanın belə turnirlərə ev sahibliyi etməsi, həmçinin təşkilatçılığı gənc nəsil futbolunun da inkişafına böyük təkan verəcək".

**Ceyhun MƏMMƏDOV**

*Babək Rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə Babək qəsəbəsindəki Uşaq-Gənclər Şahmat Məktəbində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş rayon ümumtəhsil məktəbləri arasında şahmat turniri keçirilmişdir.*

## 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş şahmat turniri



Turnir başlamazdan əvvəl Babək Rayon Təhsil Şöbəsinin əməkdaşı Müslüm Vəliyev, Uşaq-Gənclər Şahmat Məktəbinin direktoru İbrahim Sultanov ölkəmizdə idmana göstərilən qayğıdan bəhs etmiş, muxtar respublikamızda olimpiya-idman komplekslərinin, idman məktəblərinin inşa olunmasının bunun bariz nümunəsi olduğunu diqqətə çatdırmışlar. Bildirilmişdir ki, idmana göstərilən qayğı nəticəsində muxtar respublikamızda beynəlxalq səviyyəli yarışların keçirilməsi artıq ənənə halını almışdır.

Baş hakim Zakir Quliyev turnirin qaydaları barədə məlumat vermişdir. Sonra ümumtəhsil məktəblərindən 20 komandanın mübarizəsinə start verilmişdir. Hər komandada 2 oğlan, 1 qız olmaqla, 60 idmançı yarışmışdır.

Yarışda Babək qəsəbə tam orta məktəbinin komandası 7 xalla birinci yeri tutmuşdur. İkinci yeri 6 xalla Qoşadizə kənd tam orta məktəbinin komandası qazanmış, üçüncü yerdə isə 5 xalla Nehrəm kənd 3 nömrəli və Sirab kənd tam orta məktəblərinin komandaları qərarlaşmışlar.

Turnirin sonunda qalib komandalar Təhsil Şöbəsinin diplomları ilə təltif olunmuşlar.

**Xəbərlər şöbəsi**

### Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzin kollektivi həkim Mirkamal Seyidova, əzizi **YAŞAR HƏSƏNOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının baş həkimi Rəhim Rəhimov və xəstəxananın kollektivi keçmiş iş yoldaşları həkim **RÜBABƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Biznes Mərkəzinin direktoru Vüqar Səfərov və mərkəzin kollektivi iş yoldaşları Mehparə Məmmədovaya, atası **ELXANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının Pediatriya şöbəsinin işçiləri həkim **RÜBABƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Elnur Kəlbizadə

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 1164